# Azərbaycan gəncliyi: tərəqqiyə gedən yol

**Azərbaycan Hərb Tarixi Muzeyində 2 fevral Gənclər Gününə həsr olunmuş "Azərbaycan gəncliyi: tərəqqiyə doğru gedən yol" adlı tədbir keçirilib.**

**Tədbir Birinci və İkinci Vətən müharibələri zamanı torpaqlarımızın düşməndən azad olunmasında qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalmış əsgər və zabitlərimizin ruhunu bir dəqiqəlik sükut və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.**



Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi e.o.polkovnik Elşad Pənahov çıxış edərək bildirib ki, gənclik böyük qüvvədir. Qeyd edib ki, tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəsillə bağlayır. Bu baxımdan sağlam düşüncəli nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir:

"Gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşan, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verən, bu siyasəti müasir müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri hesab edən ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət gənclər siyasəti ölkə gəncliyinin inkişafında dərin izlər buraxıb.

1994-cü ildə dövlət gənclər siyasətini icra edən Gənclər və İdman Nazirliyi yaradılıdı.1996-cı ilin 2 fevral günündə ümummilli lider Heydər Əliyevin dəstəyi ilə gənclərin ilk forumu keçirildi. 1997-ci ildən isə Prezidentin sərəncamı ilə həmin tarix Azərbaycanda Gənclər Günü kimi qeyd olunmağa başladı. Bununla ölkəmizdə dövlət səviyyəsində gənclər siyasəti müasir Azərbaycan gəncliyin inkişafına böyük təkan vermiş oldu".

Polkovnik bildirib ki, o vaxtdan etibarən həmin gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb. Azərbaycanda Gənclər Günü təsis edildikdən sonra gənclərin işləri üzrə nazirlərin ümumdünya konfransının tövsiyəsi əsasında BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 avqust - Beynəlxalq Gənclər Günü elan edilib.

Tədbirdə AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Şimali Azərbaycan XIX-XX əsrin əvvələri tarixi" şöbəsinin aparıcı elmi işçisi, t.ü.f.d., dosent Zəfər Kərimov "Çağdaş Azərbaycan cəmiyyətinin əsas qurucu qüvvələri Azərbaycan gəncləridir"- adlı məruzə ilə tədbir iştirakçılarına məlumat verib. Qeyd edib ki, Azərbaycanın müstəqilliyi dövründə yeni nəsil aparıcı, hərəkətverici qüvvə olduğunu vətənpərvərliyi, bacarığı və işgüzarlığı ilə nümayiş etdirib. Bu gün böyük iftixar hissilə demək olar ki, müasir Azərbaycan gəncliyi dövlətçiliyimizin, milli mənəvi dəyərlərimizin, adət-ənənələrimizin keşiyində möhkəm dayanır.



**Bu gün hər birimiz fəxr edirik ki, Müzəffər Ali Baş Komandanın qətiyyəti və uzaqgörən rəhbərliyi, rəşadətli Azərbaycan Ordusunun peşəkarlığı və qələbə əzmi, xalqımızın mətanəti sayəsində torpaqlarımız işğaldan azad edilib. Azad edilən torpaqlarımızda görüləcək quruculuq-abadlıq işlərində, doğma diyarımızın yenidən çiçəklənməsində gənclərimizin də iştirakı mühüm əhəmiyyət kəsb edir.**

**Daha sonra Azərbaycan Hərb Tarixi muzeyinin tədqiqatçı baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılov "2 Fevral gənclər gününün yaranması tarixi və əhəmiyyəti" adlı məruzə ilə çıxış edərək bildirib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən dövlətin gənclər siyasəti uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan verib, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynayır:**

"2003-cü ildən sonrakı dövrdə gənclər siyasətinin inkişaf istiqaməti mövcud ənənələr əsasında daha da təkmilləşdirildi. Gənclər ilə bağlı Dövlət proqramları qəbul edildi, 2007-ci il "Gənclər ili" elan olundu, 2011-ci ildə Gənclər Fondu yaradıldı, 2013-cü ildə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı" təsis olundu, Azərbaycan gənclərinin İnkişaf Strategiyası təsdiqləndi. Həyata keçirilən tədbirlər Azərbaycan gəncliyinin cəmiyyətdə öz layiqli yerini tutmasında böyük önəm daşıyır. Ölkəmizin həyatında elə mühüm, dövləti əhəmiyyətli sahə yoxdur ki, gənclər orada layiqincə təmsil olunmasın".

Vahid İsmayılov qeyd edib ki, gənclər siyasətinin uğurla aparılması hərbçi gənclərdə fəallıq, təşəbbüskarlıq bacarığını, məsuliyyət hissini möhkəmlədir, Heydər Əliyev tərəfindən müəyyən edilmiş azərbaycançılıq ideologiyası onlarda vətənpərvərlik duyğuları aşılayır. Doğrudan da, gənclərimizin böyük bir hissəsi ən çətin və məsuliyyətli bir işi çiyinlərinə götürərək, taleyini Silahlı Qüvvələrimizlə bağlayıb. **Bu gün ordumuzun qazandığı böyük nailiyyətlər, ilk növbədə, gənclərimizin şərəfli və məsuliyyətli xidmətilə bağlıdır".**

**Vahid İsmayılov gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olmasının 44 günlük Vətən müharibəsində həlledici rol oynadığını söyləyib: "2020-ci il sentyabrın 27-də başlanmış Vətən müharibəsi Azərbaycan Silahlı Qüvvələrinin şanlı Qələbəsilə yekunlaşdı. Dağlıq Qarabağı və ətrafındakı əlavə 7 rayonu 30 ilə yaxın işğal etmiş Ermənistan ordusu biabırçı məğlubiyyətə düçar oldu, Paşinyan hökuməti Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi qüdrətli Azərbaycan qarşısında kapitulyasiya aktına qol çəkməyə məcbur edildi. Azərbaycanın mədəniyyət mərkəzi hesab edilən qədim Şuşa şəhərinin azad edildiyi 8 noyabr Azərbaycanın şərəfli salnaməsinə Zəfər Günü kimi qızıl hərflərlə həkk olundu. Ordumuzun cəsur əsgərləri Füzuli, Cəbrail, Zəngilan, Hadrut və digər yaşayış məntəqələrini azad edərkən qəhrəmanlıq nümunələri göstərdilər. Şuşa şəhərinin xilas edilməsi əməliyyatı isə Azərbaycan hərb tarixinə parlaq qəhrəmanlıq səhifəsi kimi yazıldı".**

**Tədqiqatçı çıxışında Vətən müharibəsində müzəffər Azərbaycan Silahlı Qüvvələrinin göstərdiyi qəhrəmanlığın nəinki regionumuzda, eləcə də dünyada böyük əks-səda doğurduğunu deyib. Qeyd edib ki, bu gün ordumuzun apardığı döyüşlər dünyanın güc mərkəzlərində XXI yüzilliyin nümunəvi hərbi əməliyyatları kimi dəyərləndirilir, mütəxəssislər və ekspertlər tərəfindən hərtərəfli araşdırılaraq öyrənilir:**



**"Xalqımıza bu şanlı, unudulmaz Zəfər gününü bəxş edənlərin böyük əksəriyyəti hərbçi gənclər idi. Ona görə bir daha əminliyimizi ifadə edərək deyə bilərik ki, Azərbaycanın dövlətçiliyi, gələcəyi bütövlükdə etibarlı əllərə həvalə olunub".**

**Tədbirdə 2 fevral gənclər gününə həsr olunmuş sənədli filmin nümayişi olub. Tədbirin bədii hissəsində Həzi Aslanov adına Ordu, İdeoloji iş və mədəniyyət mərkəzinin solistlərinin ifasında hərbi vətənpərvərlik mahnıları səsləndirilib.**



*Gülşəndə MAMEDOVA*
*Azərbaycan Hərb Tarixinin Muzeyinin tədqiqatçı elmi-işçisi*